**2016-2017-ci tədris ili üçün UFAZ-ın hazırlıq kursunda Azərbaycan tərəfindən dərslərə cəlb olunacaq professor-müəllim heyətinin formalaşdırılması qaydaları**

Fransa-Azərbaycan Universiteti (UFAZ) layihəsi Fransa Respublikasının və Azərbaycan Respublikasının Prezidentlərinin təşəbbüsü ilə irəli sürülmüş bir layihədir. Layihəyə əsasən, 2016-2017-ci tədris ilindən etibarən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində 4 ixtisas üzrə tədrisə başlanacaq. Bu ixtisaslar aşağıdakılardır:

1. Kimya mühəndisliyi ixtisası
2. Kompüter elmləri
3. Geofizika mühəndisliyi
4. Neft və qaz mühəndisliyi

Fransa tərəfi ilə razılaşma əsasında aşağıda göstərilən fənlərin tədrisinə Azərbaycan Respublikasından professor-müəllim heyəti cəlb olunacaq:

| Fənn | Akademik yük (saat) | | | Tələb olunan ştat vahidləri ** |
|---|---|---|---|---|
| | **1-ci semestr** | **2-ci semestr** | Cəmi | |
| Riyaziyyat | 120 | 120 | 240 | 0,5 |
| Fizika | 120 | 230 | 350 | 0,75 |
| Kimya | 120 | 270 | 390 | 0,75 |
| İnformatika | 280 | 280 | 560 | 1 |
| İngilis dili | 960 | 160 | 1120 | 2,25 |
| Fransız dili | 640 | 160 | 800 | 1,5 |
| Müxtəlif * | - | 200 | 200 | 0,5 |

* İxtiyari fənn üzrə təqdim oluna bilər.

**1 ştat vahidi üçün 500 saat akademik yükün ayrılması nəzərdə tutulub.

Müəllimlərin seçimi Strasburq Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nümayəndələrindən ibarət komissiya tərəfindən aparılır. Bu prosesdə xanım Şarlot Payen Fransanın ölkəmizdəki səfirliyini təmsil edəcək.

Namizədlər pdf formatında ingilis dilində yazılmış ərizə və CV-lərini **22.07.2016-dək ufaz-coordinator@asoiu.edu.az** elektron ünvana göndərməlidir.

- Ərizəçilərin yuxarıda göstərilən sahələr üzrə ən azı magistr dərəcəsi və iki illik tədris təcrübəsi olmalıdır.
- Namizədlərin yüksək ingilis dili biliyi və bu dildə fənlərin tədrisi bacarığı olmalıdır.
- CV-də əlavə olaraq xaricdə təhsil təcrübəsi, ingilis dilində yazılmış dərslik və müasir təhsil metodları ilə tanışlıq, fransız dili biliyi, doktorantura dərəcəsi göstərilməlidir.

Sənəd və sertifikatların pdf versiyaları, peşəkar layihəni təsvir edən və UFAZ-dakı vəzifəyə marağı ifadə edən motivasiya məktubu da əlavə olunmalıdır.

Komissiya tərəfindən seçilmiş namizədlər **25-29 iyul** 2016-cı il tarixlərində müsahibə təşkil ediləcək. Müsahibə 30 dəqiqə davam edəcək. Müsahibədə namizəd 15 dəqiqə ərzində özünü təqdim etməli, sonra isə suallara cavab verməlidir.